

*Onun kimi sənətkarlar həyata az-az gəlir. Təkcə doğma xalqının deyil, həm də qardaş xalqların musiqisinə və mədəniyyətinə töhfəsini verir, sevilir, sevilə-sevilə də zirvələrə yüksəlir. Musiqi və teatr sənətimizdə öz dəst-xətti ilə seçilən belə sənətkarlardan biri də Düriyyə Rəhimovadır.*

*D.Rəhimovanın Azərbaycan və ləzgi xalqlarının musiqi və teatr mədəniyyətində xüsusi yeri vardır. 60 ildir ki, səhnədədir. 100-ə yaxın yaddaqalan obraz yaradıb.*

*1929-cu ildə Quba rayonunun Qımıl kəndində anadan olub. Birinci sinfə Qubada gedirb, IV sinifdən şəhər xorunda solist kimi çıxış etməyə başlayıb.*

# Bir səsin sehri

Bayram tədbirlərində tez-tez böyük səhnəyə çıxan balaca Düriyyənin məlahətli səsi hamını valeh edir. Onu yerli radio verilişləri redaksiyasına dəvət edirlər.

Quba pedaqoji məktəbinə daxil olanda hazırda Dağıstanda şair, dramaturq və bəstəkar kimi tanınmış Asəf Mehmanla tanış olur. Onların yaradıcılıq əlaqələri bu gün də davam edir. Düriyyə səhnəsiz yaşaya bilmirdi, odur ki, şəhər mədəniyyət evinin tədbirlərinə qoşulur, Quba Dövlət Dram Teatrında aktrisaları əvəz edirdi.

1947-ci ilin payızında gənc Düriyyə I respublika mahnı olimpiadasının iştirakçısı kimi Qubadan Bakıya göndərilir. Orada hər iştirakçı bir mahnı ifa etdiyi halda ona üç mahnı oxumağa icazə verirlər. Eyni zamanda qızın səsini birbaşa efirə ötürürlər. Yekun konsertində ona "Kəsmə şikəstə"ni oxumağı məsləhət görürlər.

1956-cı ildə keçirilən I Respublika gənclər festivalında Düriyyə Rəhimova Hacıbaba Həsənovun "Sənin gözlərin", Səid Rüstəmovun "Qurban adına", Habil Əliyevin "İlk məhəbbət" mahınılarını, 1957-ci ildə II Respublika gənclər festivalında Hacıbaba Həsənovun "Həkim qız", Səid Rüstəmovun "Getmə-getmə" və Əjdər Gərayxanovun "Nazlı ceyran" mahnılarını ifa edərək, böyük uğur qazanır. O, hər iki festivalın laureatı olur. Münsiflər heyətinin üzvlərindən Xan Şuşinski və Həqiqət Rzayeva qızın səsini çox bəyənir və onu operaya dəvət edirlər.

1956-cı ildə Quba mədəniyyət evinin direktoru təyin olunan Düriyyə xanım az müddət ərzində burada xor, dram və sair dərnəklər yaradır, tez-tez konsertlər, yazıçı və şairlərlə görüşlər təşkil edir, bayram tədbirləri keçirirdi. Həmin tədbirlərdə Azərbaycan və ləzgi dillərində mahnılar oxuyur, səhnə əsərlərində müəyyən rollarda çıxış edirdi. Tədbirlərdən birinə dəvət olunmuş şair Bayram Səlimov Düriyyə Rəhimovanın ifasında "Ay dilbər", "Sonacan" ləzgi xalq mahnılarını dinlədikdən sonra Mahaçqala radiosunda müğənni haqqında məlumat verir və ləzgicə çıxan "Dağıstan qadını" jurnalında "Ləzgilərin bülbülü" adlı məqalə ilə çıxış edir. Az sonra Dağıstan radiosunun ləzgi verilişləri redaksiyasının baş redaktoru İmaməddin Apayev Düriyyə Rəhimovanı mahnılarının lentə alınması üçün Mahaçqalaya ezam olunmasını xahiş edir. Beləliklə, Düriyyə xanımın ifasında Azərbaycan və ləzgi mahnıları ilk dəfə Mahaçqala radiosunda lentə alınır.

1959-cu ildə Bakıda Daxili İşlər Nazirliyinin klubunda bədii özfəaliyyət kollektivlərinə baxış keçirilirdi. Burada Düriyyə Rəhimova Şamil Gebekbəyovun Süleyman Rüstəmin sözlərinə bəstələdiyi "Sevən tapılar" mahnısını oxudu. Mahnı münsiflər heyəti tərəfindən bəyənildi və Düriyyəni radioya dəvət etdilər. Artıq görkəmli bəstəkarlar Səid Rüstəmovla Əfrasiyab Bədəlbəyli radioda, Xan Şuşinski və Həqiqət Rzayeva kimi məşhur müğənnilər isə operada Düriyyə xanımı gözləyir, onun gələcəyinə böyük ümid bəsləyirdilər. Gənc müğənninin sevincinin həddi-hüdudu yox idi. O, böyük sənətkarlarla çiyin-çiyinə çalışmağa hazırlaşırdı. Lakin atasının vəfatı hər şeyi alt-üst etdi. Anası Xatun xanımı beş yetim uşaqla baxımsız qoyub heç yerə gedə bilməzdi.

1960-cı ildə Düriyyə Rəhimova A.Bakıxanov adına

*Sahsənəm ("Aşıq Qərib") rolunda*



Quba Dövlət Dram Teatrında işə düzəlir. İşlədiyi müddətdə S.Vurğunun "Fərhad və Şirin"ində Fitnə və Şirin, "Vaqif" əsərində gürcü qızı Tamara, Lope de Veqanın "Sevilya ulduzu"nda Natilda, M.Şamxalovun "Qaynana"sında Sevda və Afət, C.Cabbarlının "Solğun çiçəklər"ində Pəri və Sara, A.Şirvanzadənin "Namus"unda Süsən, Ü.Hacıbəyovun "O olmasın, bu olsun"unda Gülnaz, Ə.Haqverdiyevin "Pəri cadu"sunda Hafizə xanım, Şahvələdin "Qız qalası"nda Səhərbənd, S.Rəhmanın "Əliqulu evlənir"ində Nazlı, "Nişanlı qız"ında Qəmər, "Bahar"ında Qumru, B.Vahabzadənin "Vicdan"ında Şəlalə, S.Rüstəmovun "Rəisin arvadı"nda Bənövşə, "Durna"da Lalə və Durna, "Xoşbəxtlər"də İnci rollarında oynamış, Qusar, Şamaxı, Şəki, Göyçay, Yevlax, İsmayıllı, Zaqatala, İmişli, Saatlı, Ağsu, Qəbələ, Oğuz, Qax, Balakən və sair rayonlarda, həmçinin Sümqayıt şəhərində qastrol səfərlərində olmuşdur. 1962-ci ilin noyabrında Quba Dövlət Dram Teatrı bağlandıqdan sonra D.Rəhimova Dərbənd şəhərindəki Süleyman Stalski adına ləzgi dram teatrında işə düzəlir. Burada o, özünün yaradıcılıq imkanlarından geniş istifadə edərək, 50-dən artıq yaddaqalan obraz yaratmışdır. "Pəri xanım" tamaşasında Pəri xanım, İbrahim Hüseynovun "Sayad"ında Sayad, Qaçidzenin "Xanuma"sında Xanuma, Qiyas Məcidovun və Xürük Tahirin "Aşıq Səid"ində Dilbər, Zülfüqar Hacıbəyovun "Aşıq Qərib"ində Şahsənəm, Şekspirin "Kral Lir"ində Reqana, Molyerin "Xəsis"ində Eliza, Asəf Mehmanın "Mənim Sədəfim" pyesində ana, "Gülümat"ında Gülümat kimi obrazlar yaradan Düriyyə xanım eyni zamanda kənd zəhmətkeşləri qarşısında müntəzəm olaraq konsertlər verirdi.

*Nurcahan nənə ("Nənənin kələyi") rolunda*




1967-ci ildə Dərbənddə D.Rəhimovanın rəhbərliyi ilə "Dostluq" ansamblı fəaliyyət göstərirdi. Xalqın sevimlisi olan Düriyyə 1967-ci ildən 1986-cı ilə kimi fasiləsiz olaraq Dərbənd şəhər sovetinə deputat seçilmiş, şəhərin ictimai həyatında fəal rol oynamışdır.

Pərəstişkarları onu "Dağıstan bülbülü", "İki xalqın nəğməkar qızı" adlandırırlar. Düriyyə xanım Moskva, Leninqrad və Bakı şəhərlərində keçirilmiş Dağıstan mədəniyyəti və incəsənəti ongünlüklərinin iştirakçısı olmuşdur. O, 1965-ci ildə "Dağıstan Respublikasının əməkdar artisti", 1977-ci ildə "Dağıstan Respublikasının xalq artisti" adlarına layiq görülmüş, 1986-cı ildə "Xalqlar dostluğu" ordeni ilə təltif edilmişdir.

1989-1996-cı illərdə Düriyyə Rəhimova Dərbənddə Azərbaycan Dövlət Dram teatrında bədii rəhbər və rejissor vəzifələrində çalışmışdır. Bu teatrda Səid Rüstəmovun "Beş manatlıq gəlin"ində Naznaz, M.Şamxalovun "Qaynana"sında Afət, S.Vurğunun "Fərhad və Şirin"ində Şirin, C.Cabbarlının "Solğun çiçəklər"ində Sara, "Pəri xanım" tamaşasında Pəri xanım rollarını oynamaqla kifayətlənməmiş, Azərbaycan teatrında səhnəyə qoyulmaqdan ötrü ləzgi və gürcü dramaturqlarının bir sıra əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

Onun rejissor kimi tamaşaya qoyduğu "Pəri xanım" faciəsi, S.Rüstəmovun "Durna", Ü.Hacıbəyovun "Ər və arvad" komediyaları Dərbənddə müvəffəqiyyətlə oynanılmışdır. Düriyyə Rəhimova Dağıstanın xalq şairi R.Həmzətovun 80 illiyinə həsr edilmiş "Azərbaycan və Dağıstan", Azərbaycan klassiki M.Füzulinin yubileyi ilə bağlı "Füzuli-500" musiqili ədəbi kompozisiyasının ssenari müəllifidir. O, Mahaçqalada keçirilən teatr festivalında mükafata layiq görülmüşdür. Rusiyia Federasiyası Teatr xadimləri İttifaqının üzvüdür.

O, hələ də Dərbənddə Azərbaycan Dövlət Dram Teatrında inamla yaşına uyğun obrazlar (Anarın "Təhminə və Zaur"nda Zivər, A.Kamyunun "Anlaşılmazlıq"ında ana, F.Əmirovun "Gözün aydın"ında Nargilə, Ə.Haqverdiyevin "Yeyərsən qaz əti, görərsən ləzzəti" əsərində Gülpəri, "Pəri cadu"sunda Şamama cadu, Əhməd Orucoğlunun "Nənənin kələyi"ndə Nurcahan nənə, və sair yaradaraq tamaşaçıların sevimlisidir.

O, bir sənətkar ömrü yaşayır və özünün davamçıları kimi qızlarını və bacısı qızlarını incəsənt aləminə cəlb etməsi ilə fərəh duyur. Dağıstanın əməkdar artisti mərhum Nəsir Həşimoğlunun uğurlarında onun böyük əməyi olmuşdur. Böyük qızı Almaz Dərbənd tarix muzeyində şöbə müdiri vəzifəsində işləyir. Yaqub isə Dərbənddəki Azərbaycan Dövlət Dram Teatrında rejissor işləməklə yanaşı, şəhər musiqi texnikumunun aktyorluq şöbəsində rejissorluqdan dərs deyir.

*Düriyyə xanım da həmin texnikumda nitq mədəniyyətindən dərs deyərək, Azərbaycan teatrı üçün savadlı aktyorların yetişməsinə kömək göstərir. Onun öz qızları və bacısı qızları Sevda, Aybəniz və Diləfruzla birgə yaratdığı "Ulduzlar" ailə ansamblı da tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır.*

**Əfruz RƏHİMOVA**